# İmişlidə pambıq tədarükünün qızğın çağıdır



Son illər həyata keçirilən iqtisadi islahatlar aqrar sahəyə də yeni nəfəs verib. Bu da təsadüfi deyil. Çünki Azərbaycanda kənd təsərrüfatı istehsalının zəngin tarixi ənənələri var. Ölkəmiz tək nefti ilə deyil, həm də bərəkətli torpaqlarında yetişən məhsulları ilə tanınır. Elə təbii resurslar hesabına azad bazar iqtisadiyyatı şəraitində əsas qida məhsulları ilə təminat, ölkənin ərzaq təhlükəsizliyini qorumaq mümkün olub. Son iki ildə kənd təsərrüfatının, xüsusən onun ənənəvi sahələrinin inkişafı, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi istiqamətində zəruri hüquqi aktlar, dövlət proqramları qəbul edilib. Ən əsası, Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı ilə bağlı keçirilən müşavirələr, ixracyönümlü, ölkəmizə valyuta gətirə bilən sahələrin stimullaşdırılması ilə bağlı atılan addımlar aqrar sahədə böyük canlanmaya və əhalidə ruh yüksəkliyinə səbəb olub.

Aran bölgəsinin "ağır artilleriyası" olan İmişlidə isti və quraq keçən yaydan sonra da qaynar həyat davam etməkdədir. Səhərin gözü açılan kimi yollarda pambıqçıları sahələrə daşıyan maşınlar, müxtəlif kənd təsərrüfatı texnikaları sıralanır. Fermerlər əlverişli hava şəraitindən istifadə edərək, min bir zəhmətlə yetişdirilən məhsulu sahələrdən toplamaq və gələn ilin əkininə hazırlıq görmək istəyir.

Bu il İmişlidə 15 641,5 ha sahədə əkin aparılıb. Bu, respublika üzrə ikinci yüksək göstəricidir və ümumi pambıq əkininin 11,4 faizini təşkil edir. Bunun bir səbəbi pambıq yetişdirmək üçün uyğun iqlim şəraitinin olmasıdırsa, digər səbəbi bu sahədə ənənənin mövcudluğudur. Ötən əsrin 70-80-ci illərində İmişlidə 50 min ton pambıq istehsal olunub. İqlim həmin iqlim, torpaq həmin torpaqdır. Elə insanları da zəhmətkeş, "daşdan çörək çıxaran"...

"Sovet hökumətinin süqutuna, mədiyini söyləyir: "Topladığımız məhsul həm də gördüyümüz işin göstəricisidir. Atalar deyib ki, nə əkərsən, onu da biçərsən. Gərək əkin üçün yer yaxşı hazırlana, torpaq üzvi və mineral gübrələrlə qüvvətləndirilə. Becərmə dövründə bir tərəfdən alaq otları təmizlənirsə, digər tərəfdən bitkinin inkişafı üçün kultivasiya işi görülməli, zərərvericilərə qarşı mübarizə tədbirləri aparılmalı, əkin vaxtında suvarılmadır. Pambıqda dəvə dözümü var. Hətta zəif və gec suvarılan əkinlərimiz belə hektara 20 sentner məhsul verib. Yüksək məhsuldarlıq üçün isə, əvvəldə dediyim kimi, bütün aqrotexniki tələblərə əməl olunmalıdır."

Eldə məsəl var: "Çörəyi ver çörəkçiyə, birini də üstəlik." Rayon rəhbərliyi, yerli kənd təsərrüfatı idarəsi əkin dövriyyəsini genişləndirərkən qabaqcıl təsərrüfat adamlarının, yüksək ixtisaslı mütəxəssislərin təcrübəsindən istifadə edib. Bizə məlumat verildi ki, Sərvan Novruzov Aranlı kəndində 124 ha, Rauf Vəliyev Qızılkənd kəndində 120 ha, Elbrus Abbasov Muradxanlı kəndində 100 ha, Valid Hüseynov Məzrəli kəndində 50 ha pambıq əkini aparıb.

"MKT-İK" MMC-nin İmişli filialı ilə yanaşı, "CTS-Agro", "Osmanlı" və "KT" müəssisələri də torpaq mülkiyyətçiləri ilə təchizattədarükə bağlı müqavilə bağlayıb. Fermerlərlə tədarük müəssisələrini, habelə aidiyyəti təşkilatları əlaqələndirmək və ortaya çıxan problemləri dərhal aradan qaldırmaq üçün yerli icra hakiduqdan sonra torpaqların təkrar şoranlaşmasının qarşısını almaq mümkün olacaq. Yüksək məhsul istehsalına nail olmaq üçün həmin əkin sahələrindən torpaq nümunələri götürülərək, bitki tələbatına uyğun yemləmə rasionları tətbiq edilməlidir." Bu sözləri İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev 2016-cı ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə Sabirabadda keçirilən, pambıqçılığın inkişafına həsr olunan 1-ci respublika müşavirəsində söyləyib. Həmin, eləcə də Saatlıda keçirilən 2-ci müşavirədə verilən təkliflər bu ilin iyulunda Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb. Həmin sənəddə də qeyd edilir ki, ölkənin iqtisadi potensialından səmərəli istifadə və ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələr əldə etməyə imkan verir. Bu isə regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha effektiv istifadə olunmasına, infrastrukturun müasirləşdirilməsinə və əhalinin məşğulluğunun artmasına zəmin yaradır. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 22 sentyabr tarixli, 2350 nömrəli sərəncamına uyğun olaraq, təhvil verdikləri hər kiloqram xam pambığa görə istehsalçılara 10 qəpik





kollektiv təsərrüfatların ləğvinə, yeni mülkiyyət münasibətlərinin yaranmağına və bazar iqtisadiyyatına keçid belə bizi bu ənənədən ayırmayıb. Alış qiymətinin ucuz, indiki qədər dövlət dəstəyi və maliyyələşmə mənbəyi olmadığı vaxtlarda da fermerlərimiz pambıq əkməkdən imtina etməyib. Ölkə başçısının çağırışından ruhlanan əməkçilərimiz cari il pay torpaqlarının tən yarısında pambıq əkiblər."

Bunu İmişli rayonunun Hacırüstəmli kəndinin sakini, qabacıl fermer Əlheydar Süleymanov deyir. Onunla birgə əkin yerlərinə baxış keçiririk. Qarşımıza başı sanki ağ örpəyə bürünmüş geniş sahə açılır: "Bax bu yerə hələ əl dəyməyib. Həmkəndlim Ayaz Şıxəliyevin sahəsidir. Gözlədik bütün qozalar açsın ki, birdəfəlik yığaq".

Ə.Süleymanov bildirir ki, o, pambıqçılığa 1996-cı ildən başlayıb, işinə məsuliyyətlə yanaşdığına və etibarlı tərəfdaş olduğuna görə "MKT-İK" MMC-nin İmişli filialının etimadını qazanıb və 2004-cü ildə şirkətin ərazi üzrə nümayəndəsi təyin olunub.

"Ailə üzvlərimlə 67 hektar sahədə pambıq əkmişəm. Bugünədək 133 ton məhsul toplayıb pambıq qəbulu məntəqəsinə təhvil vermişəm. Hələ 11 hektar sahəmə əl dəyməyib, qalan 56 hektarlıq əkin üzrə isə 2-ci yığım olacaq. Hədəfim hər hektara görə 30 sentner məhsul toplamaqdır. Bundan əlavə, şirkətlə müqavilə bağlayan 15 nəfər fermerin əkdiyi 271 hektar sahəyə təhkim olunmuşam. Həmin sahələr üzrə bugünədək ümumilikdə 441 ton məhsul yığılıb".

Təcrübəli fermer pambıqçılıqda indiyədək heç vaxt zərər etmiyyətində qərargah yaradılıb.

Demək olmaz ki, hər yerdə iş, necə deyərlər, yağ kimi gedir. Təbii ki, iş olan yerdə problem də ortaya çıxır. Bu il bəzi fermerlər təkrar səpin aparmalı olub. Suvarma suyu ilə təminatda çətinliklər yaşanıb. Bəzi sahələrdə kənd təsərrüfatı zərərvericilərinə qarşı effektiv mübarizə tədbirləri görülməyib. Seçilmiş gecyetişən, lakin soyuğa davamlı və məhsuldar toxum növünə görə əksər sahələrdə yığıma oktyabr ayından başlanılıb. Fermerlər bildirir ki, ötən illə müqayisədə hava şəraiti məhsul toplanışı üçün əlverişlidir, bu səbəbdən itki azdır. Son vaxtlar qəbul məntəqələrinə gündəlik 400 tona yaxın məhsul təhvil verilir. Elə əkin sahələri var ki, orada noyabrın sonunda və bundan sonrakı vaxtda məhsul yetişəcəyi proqnozlaşdırılır.

Tədarük-təchizat müəssisələri yığıma yaxşı hazırlaşıblar. Belə ki, məhsul toplanışı işinə 26 ədəd kombayn, 92 ədəd traktor, 164 ədəd qoşqu lafeti cəlb edilib. "MKT İK" MMC-nin balansında olan Araz məntəqəsi təmir edilərək şəraiti yaxşılaşdırılıb. Cari il Kənd Təsərrüfatı Nazirliyinin hesabına 4 min ton məhsul qəbul etmək gücünə malik yeni pambıq qəbulu məntəqəsi açılıb və orada 12 taya üçün yer hazırlanıb.

Rayonun potensialı daha çoxdur. Amma indiyədək otlaq məqsədilə istifadə edilən"ağır" və "şorakət" torpaqları əkin dövriyyəsinə cəlb etmək üçün komleks meliorasiya və irriqasiya işlərinin aparılmasına, müasir suvarma sistemlərinin qurulmasına ehtiyac var. "Bu sistem tətbiq olunsubsidiyanın verilməsi və eyni zamanda, şirkətlər tərəfindən xamn pambığın tədarük qiymətinin artırılması bu sahənin inkişafına əlavə stimul verib.

Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Səlim Məhərrəmov gələcəyə daha nikbin baxır: "Ölkə başçısı bu sahənin inkişafı üçün çox vaxtında təşəbbüs qaldırdı. Çünki nəsillər arasında ələqə kəsilə və ənənə unudula bilərdi. Ötən əsrin 70-80-ci illərində ona görə yüksək məhsuldarlığa nail olunub ki, pambıqçılıq sahəsində elmi təminat yaradılmış və ixtisaslı kadrlar yetişdirilmişdi. Belə kadrlar bu gün də işimizə böyük təkan verir. Bundan başqa, regionların sosial-iqtisadi inkişafı üçün indiyədək görülmüş işlər, məsələn, kəndlərimizi rayon mərkəzi ilə birləşdirən avtomobil yollarının asfaltlanması, rabitə, internet imkanları, içməli və suvarma suyu ilə təminat, fasiləsiz elektrik enerjisi verilişi və s. də işi xeyli rahatlaşdırıb. Amma sürətli inkişafla ayaqlaşmağı bacarmalıyıq. Hazırkı vaxtda pambıqçılığın inkişafı institusional tədbirlərin, istehsal və emal sahəsində innovativ texnologiyaların tətbiqinin dəstəklənməsindən keçir. Dövlət Proqramında qarşıya qoyulan ən mühüm vəzifələrdən biri də istehsal etdiyimiz məhsulların rəqabət qabiliyyətliliyinin artırılması və ixracyönümlü olmağıdır. Yəni kəmiyyətlə yanaşı, keyfiyyət də artmalıdır. Pambıqçılığın inkişafı paralel olaraq daha bir neçə sahənin də inkişafını şərtləndirir ki, bu da ölkə iqtisadiyyatına böyük töhfə verəcək."

**Ərəstun ABDULOV,**
**"Respublika".**